# ƏŞYALARI ADLANDIRMAQ



BİRGƏ VƏ SAĞLAM İCTİMAİ BİRLİYİ

Azercell


Birgə və
Sağlam İB
“Autizm portalı”
BİRGƏ VƏ SAĞLAM
İCTİMAİ BİRLİYİ
Azercell

# ƏŞYALARI ADLANDIRMAQ




Uşaq bir neçə əşya üçün istək bildirən zaman ona əşyaları adlandırmağı öyrətməyə başlaya bilərsiniz. Övladınıza adlandırmağı öyrətməyin ən yaxşı yollarından biri ən sevdiyi mükafatların şəklini çəkmək və ardından bu əşyaları adlandırmasını istəməkdir. Bu zaman gerçək əşyaları istifadə edə bilərsiniz, amma bunu çox da tövsiyə etmirik, çünkü o zaman əşya üçün istək bildirmə ilə adlandırma arasında qarışıqlıq yaşana bilər. Şəkilləri istifadə etmək uşaqlarda bacarıqlar arasında əlaqə qurmaqda asanlıq yaradır. Adlandırmağı öyrətmək və bir davranış üzrə bacarığı digər davranışda da tətbiq etmək üsulu bu kitabda daha geniş izah olunub. Fərqli bacarıqlar dedikdə nə nəzərdə tutulduğunu anlamaq məqsədiylə "adlandırma"ğın gördüyünüz, eşitdiyiniz, qoxladığınız, daddığınız və ya toxunduğunuz bir şeyi etiketləmək olduğunu ağlınızda tutmağınız hələlik yetərli olacaq.



# DƏYƏRLƏNDİRMƏK

Adlandırmağı dəyərləndirmək üçün ən yaxşı yol üzərində “əşyaların adları” yazılı boş bir qutunun  içərisinə gündəlik həyatda tez-tez istifadə olunan əşyaları qoymaqdır. Ayrıca uşağın şəkilləri adlandırmaq  qabiliyyətini dəyərləndirmək üçün şəkilli kartlar, jurnallardan kəsilmiş şəkillər kimi vəsaitlər almağınız lazımdır. Əşyaların və şəkillərin adlandırılmasını dəyərləndirmək üçün uşaqdan “Bu nədir?” deyə soruşun və cavabını qeydə alın.

Əgər uşağın adlandırma bazası zəngindirsə, ilk 100 söz və ya 1000 sözlə kitablarındakı şəkilləri işarə edərək bu bacarığını dəyərləndirə bilərsiniz. Əgər adlandırma bacarığı zəifdirsə və ya uşağın səhifədəki başqa əşyalarla diqqəti dağılırsa, şəkilli kartlar istifadə etməlisiniz.

Tipik azyaşlı uşaqlar məktəb yaşlarına qədər söz dağarcıqlarına minlərlə söz toplayırlar. Adlandırmaq uşağın güclü olduğu bir sahə də olsa, dəyərləndirməyə davam edin və ən az 100-dən çox söz siyahısı  tutun və ya heç yoxdursa, 10 əşya və şəkildən sonra dəyərləndirməyi dayandıra bilərsiniz.

Üzərində çalışmalı olduğunuz ən önəmli mövzulardan  biri uşağınızın onu öyrədən şəxslə əlaqəsinin olması, digəri isə göz önündə olan bir neçə əşya üçün istək bildirməsidir. Bu irəliləməni əldə etdikdən sonra digər sözlü bacarıqlara növbə çatır.Bu, adlandırma sözlərini təqlid etmək və sadə suallara cavab verə bilmək bacarıqlarıdır.

Sözlü olmayan bacarıqlar proqramınızın mərkəzində durmamalıdır. Sizin məqsədiniz mümkünən sürətli formada danışaraq və ya işarə diliylə (jest dili) və ya başqa bir üsul vasitəsiyləuşağınıza başqa insanlarla ünsiyyət qurmaq bacarığı öyrətməkdir. Sözlü olmayan bacarıqlara daha çox vaxt ayırmaq yerinə tədrisi elə qurun ki, uşaqdan sözlü şəkildə cavab alasınız.

Bir çox proqramda sözlü olmayan bacarıqlara çox vaxt sərf edilməsinin səbəbi ipucu verməyin asan olmasından və (bir yandan uşağın uğuru mükafatlandırılarkən) danışmayan uşaqlara da öyrədilə bilən olması baxımından məqsədyönlü olmasıdır. Ev və məktəb proqramlarına baxdıqda bütün cəhdlərin ən az yarısının  sözlü reaksiyadan ibarət olması məqsədə uyğundur (bu,işarə dili də olsa qəbul olunandır). Sözlü bacarıqları öyrətmək daha çətindir, amma gözünüzü qırpmadan məqsədinizə fokuslansanız, etdiyiniz hər şeyə dəydiyini görəcəksiniz.

İstək bildirmə bacarıqlarını necə öyrədəcəyinizi öyrənmişdik. Digər bacarıqlara keçmədən öncə övladınız bir neçə əşya üçün istək bildirə bilməlidir. İstək bildirməyi, ayrıca sözlü model olmadan və ya işarə dilini istifadə edirsə, ipucu almadan gerçəkləşdirilməlidir. Uşaq istək bildirməyi bacarmadan digər bacarıqları öyrətməyə başlamayın.

Uşağın istək bildirmək bacarığına sahib olmağı lazımlıdır, çünki o səviyyəyə gələnə qədər “istək bildirmə modeli” içində ona başlanğıc səviyyəsində bilməyi vacib olan adlandırmaları, sözlü təqlid bacarıqlarını və sadə suallara cavab vermək bacarığını öyrətmiş olursunuz. Yəni uşağın ustalaşdığı istəkləri digər sözlü bacarıqlara transfer etməkdə istifadə edə bilərsiniz. Əgər uşağınız bir əşyaya sahib olmaq üçün açıq formada həvəsli olduğunda sözü söyləyərək və ya işarət edərək sizə bildirmirsə, ona nə əşya adlandırmağı nə də exolaliyada ustalaşmağı öyrədə bilərsiniz. İstək bildirmə daima lazım olan bir bacarıqdır.

# TƏDRİS



"Adlandırmaq" gördüyünüz, eşitdiyiniz, qoxladığınız, daddığınız və ya toxunduğunuz bir şeyin etiketidir. Adlandırma bir növ stimuldur (əşyanın özü, səsi,qoxusu və s.) və adlandırmanın nəticəsi tərif almaq kimi dolayı motivasiya etmədir.

"Təbii" bir adlandırma bacarığının təşviqedicisi "Bu nədir?" kimi bir sual olmamalıdır. Bacarıq, uşağın ətrafındakı bir şeyin fərqinə varıb, onun haqqında fikir bildirməsiylə ortaya çıxmalıdır. Məsələn, "Bax! Burda inək var!" və ya "Dovğa iyi gəlir". Belə spontan adlandırmalar əksərən diqqətinizə yönəlmiş istək bildirmələrdir, bu sahə də autizmli uşaqlarda olduqca zəifdir. Diqqət çəkmək məqsədli istək bildirmək proqramınızda sonralar yer alacaq. Buna görə də "Bu nədir?" sualını vermədən adlandırmağı öyrətməyi gözləmək həqiqətə uyğun olmayacaq. Mütəxəssislərin adlandırmağa bu şəkildə zəmin hazırlamasının digər səbəbi odur ki, tədris vaxtı ətraf mühitdə olan fərqli stimullaşdırıcılar faydalı fürsətlər yaradır. Bəzi autizmli uşaqlar bir bacarıqda ustalaşmaq üçün yüzlərlə cəhd göstərirlər. Tipik bir uşaq sadəcə bir dəfə eşitdikdən sonra yeni sözü yaddaşına yaza bilir, autizmli uşaqlarda isə çox zaman belə olmur. Buna görə də adlandırmada təşviqedici həm stimul (məsələn, bir şəkil və ya səs), həm də bir sualdan (bu nədir? ə ya nə eşitdin?) ibarət olmalıdır. Övladınızın sizə bir şey dediyi, sizin isə bunun qismən istək bildirmə, qismən adlandırma olduğunu fərq etdiyiniz çox zaman olacaq. Ya da qismən adlandırma, qismən sadə suallara cavab vermək də deyə bilərik. Bu mövzuda çox tələşlanmayın, çünki məqsədiniz uşağınızla ünsiyyət qurmaqdır.

Dil dedikdə birdən çox bacarıq nəzərdə tutulur. İntensiv tədris müddətində bu nöqtəni təcəssüm etdirmək üçün bacarıqları qarışdıraraq və bir-birilərini kontrol edərəkbirindən digərinə keçirik. Adlandırmaq, əlbəttə gördüyünüzü etiketləmək qədər, iylədiyiniz, eşitdiyiniz, daddığınız və toxunduğunuz şeyləri də etiketləməkdir. Bu hissədə bir uşağın vizual və audio stimulu necə adlandırdığı barədə danışılacaq.

Gördüyünüzü adlandırmaqla işə başlayın, sonra eşitdiklərinizi (məsələn, ətrafınızda varsa, heyvan səsini) adlandırın. Qoxunu və ya bir dadı adlandırma mücərrəddir, bunlar daha sonra öyrədilə bilər. Digər adlandırma bacarıqları rənglər, əşyalarla bağlı adlandırmalar (kompüterin ekranı), sifətlər (isti/soyuq) və ədatlardır (qatar reysin üzərində, qatar körpünün altında). Hal-hazırda mürəkkəb bacarıqlar haqqında düşünməyin. Yüzlərlə sadə əşyanı adlandırmadığınız müddətdə bunlara keçməyinizə gərək yoxdur.



Yeni autizm diaqnozu qoyulmuş uşaqların sarı stul deyə əşyaları etiketlədiyini və ya yanğın söndürənə "qırımızı" dediyini müşahidə etmişik. Bunlar xoş niyətli ana-atalar və professionallar tərəfindən sağlam bir təməl inşa edilmədən öyrədilən rənglər, şəkillər və funksiyalardır, bunların içində bəzən ədatlar da olur. Əgər rəngləri öyrədib mürəkkəb bacarıqları çox tez keçsəniz bu, dil və qruplaşdırma bacarıqlarını öyrətməkdə problemlərə səbəb olacaq.

Əgər uşağınıza "sarı stul" və ya "yanğın söndürən qırmızıdır" deməyi öyrədirsinizsə, gördüyü bütün stullara sarı deməyə başlaya bilər. Uşaqlara, əsas adlandırmalarda möhkəm təməl yaratdıqdan sonra növbəti mərhələlərdə rənglər öyrədilməlidir. Övladınız bu anlayışları ayrı-ayrı və axıcı bir şəkildə istifadə edə bildikdən sonra adlandırmayla rəngi bir araya gətirməyi yoxlaya bilərsiniz. Dil inkişafını piramida hesab edin. Piramidanın zirvəsinə çıxmadan öncəki pillələrin möhkəm olduğundan əmin olun.

Unutmayın ki, övladınıza "Bu nədir?" deyə sual verdiyinizdə və stulu qaldırıb göstərdiyinizdə, cavab "stul" olmalıdır. Eyni stulu qaldırıb "Bu hansı rəngdir?" deyə soruşduğunuzda cavab "sarı" olmalıdır. Yuxarıdaki suallardan hər hansısa birinə verilən "sarı stul" cavabı önəmli bir səhvdir və düzəldilməlidir. Övladınız 100 və ya daha çox sayda sadə istəyi bildirməkdə ustalaşmadan öncə, onu rəngləri, formaları və digər mücərrəd anlayışları adlandırmağa təşviq etməyin.

Övladınız təməl istəklərini bildirməkdə ustalaşdığında, eyni şəkildə daha yüksək səviyyədə olanlara keçərək davam edə bilərsiniz. Adlandırmanın tədris metodunu da stimulu diqqətə almazsaq, eyni şəkildə həyata keçirilir.

Bəli, indi isə deyək ki övladınız görmə sahəsində olan on əşyanı istəyə bilir. O zaman, onun mükafat olaraq qəbul etdiyi və eyni zamanda istəyə bildiyi əşyalar ilə bu əşyalara aid bütün şəkilləri toplayın. İstək bildirməni transfer edərkən, mükafatlarının şəkillərini istifadə etsəniz, metodunuz daha çox işə yarayar, çünki digər halda əşyalar motivasiya potensialı yaradacaqdır. Yəni övladınız adlandırma etmək yerinə əşyanı istəyəcəkdir. Övladınız bəlli bir şəkəri sevir və onu göz önündə qoyduğunuzda istəyə bilirsə, adlandırma yerinə böyük ehtimalla şəkəri istəyəcəkdir. Uşaq, motivasiyaedici əşya üçün istək bildirə bilirsə, növbəti mərhələdə ona həmin əşyanı adlandırmağı öyrətmək çox zaman daha yaxşı nəticə verəcəkdir.



Bundan başqa, qarışıq bir proqram seansı hazırlayırsınızsa, şəkillərlə işləmək daha asandır. Əşyalara aid 100 şəkil saxlamaq, əşyaları saxlamaqdan əlbəttə ki, daha asan olacaqdır. Lakin bəzilərini əşya olaraq saxlamalısınız, çünki şəkilləri adlandırmaqdansa, ayaqqabının və ya fincanın adlandırılması uşaq üçün daha funksionaldır. Bəzi uşaqlar asanlıqla ümumiləşdirmə edə bilirlər, yəni fincan şəklini adlandırmağı bildikdən sonra, bir neçə fərqli fincan təbii mühitdə qarşısına çıxdıqda fincanları adlandıra biləcək bacarığa sahib olur. Bəziləri isə sadəcə həqiqi fincan ilə fincanın rəsmi arasındakı fərqi qavramaq üçün müəyyən bir təlimata ehtiyac duymağa və fərqli tipdə fincanlar üçün də ona təlimat verməyiniz gərəkəcəkdir. Övladınızla adlandırmaq bacarıqları üzərində çalışarkən bunları yadınızda saxlayın və bunlar əsasında proqramınızı hazırlayın.
Bütün bacarıqlarda olduğu kimi, ipucuyla və ya ipucu olmadan, uşağın hansı əşyaları adlandıra bildiyini dəyərləndirə bilmək üçün ümumi bir araşdırma etməyiniz gərəkəcəkdir. Övladınız bəzi mükafatlandırıcı əşyaları və tez-tez qarşılaşılan əşyların birini adlandıra bildiyi halda digərini adlandıra bilmirsə, bu sözlərdən ümumi bir siyahı hazırlayıb, övladınızın hansı əşyaları adlandıra bildiyini test edin. Adlandıra bildiyi sözlərin yanına (+) işarəsi qoyun, xətalı söylədiyi və ya heç reaksiya vermədiyi sözlərin qarşısına (-) işarəsi qoyun.

(+) olan sözləri hal-hazırda ustalaşdığı adlandırmalar olaraq qəbul edə bilərsiniz, buna görə də bu adlandırmalar üçün təkrar araşdırma etməyiniz və ya onları öyrətməyiniz gərəkmir. Tədrisə yeni başlamış uşaqların adlandırma bacarığına heç sahib olmadığını görmək, qarşılaşdığımız bir şey deyil. Sizin övladınız da bu dediyimizə uyğundursa, ustalaşdığı istək bildirmə siyahısındakı potensial hədəflərə baxın. Övladınızın istək bildirəcəyi sözləri incələyin (pişik, süd, top), bu sözləri verbal və qeyri-verbal bacarıqların içində istifadə edin. Adlandırma autizmli uşağın verbal olmayan bacarıqlarına nisbətdə qazanmaqda daha çox çətinlik çəkdiyi bacarıqdır, bu səbəbdən ən öncə adlandırma bacarığı üçün araşdırma etməyi mütləq vərdiş halına gətirməlisiniz. Alıcı dil bacarıqları üçün dəyərləndirmə edərkən, "Topa toxun" dedikdən sonra adlandırma dəyərləndirməsinə keçib "Bu nədir?" deməməlisiniz, çünki burda əşyanın top olduğu ipucunu vermiş olursunuz.

Aşağıda Həmzənin adlandırma bacarığı dəyərləndirilən ümumi bir yoxlama nümunəsinə nəzər salaq:

Ana: Peçenye şəklini qaldırıb (şəklin Həmzənin bildiyi və istək bildirdiyi peçenyelərə bənzəməsi önəmlidir) və "Bu nədir?" deyir.

Həmzə: İşarət diliylə "peçenye" deyir.

Ana: "Super dedin" köpük üfürür (yaxudistədiyi hər hansı mükafat ola bilər). Dəyərləndirmə vərəqəsinə "Bəli" işarələyir.

Ana: Yuxarı qaldırdığı şəkildə Həmzənin yelləncəyi var, "Bu nədir?" deyə soruşur.

Həmzə: İşarət diliylə "Hoppanmaq" (yanlış cavab verir).

Ana: Həmzənin əllərini aşağı endirir və yelləncək şəklini təkrar yuxarı qaldırır "Bu nədir?" deyir və dərhal uşağın əllərini "yelləncək" deyəcəyi formaya salaraq ipucu verir, ana da "yelləncək" deyir.

Həmzə: Tam ipucuyla bərabər "yelləncək" işarətini edir.

Ana: "Doğrudur, bu nədir?" təkrar yelləncəyin şəklini göstərir.

Həmzə: İşarət diliylə  yelləncək" deyir.

Ana: "Doğrudur, bu yelləncəkdir" deyir vəişarət diliylə də yelləncək deyir. Dəyərləndirmə vərəqinə " Xeyr" işarələyir.

Dəyərləndirmə vərəqində qeyd apararkən "Bəli" xanasını işarələməyiniz üçün əsas şərt uşağın üç saniyə içində reaksiya verməsi və düzgün reaksiyadan sonra ardıcıl başqa reaksiyalar verməməsidir.Öz-özünü düzəltsə belə, bu doğru hesab edilmiz. İşarət dili istifadə edirsə, eyni şəkildə verdiyi cavab dəqiq olmalıdır. Bir sözdən digərinə keçmək olarsa, etdiyi adlandırma doğru olsa belə, bu doğru sayılmız və vərəqə "Xeyr" olaraq işarələnir.
Yuxarıda Həmzə üçün verilən nümunədə ana dəyərləndirmə vərəqəsinə "Xeyr" qeydini etməzdən öncə yanlışı düzəltməlidir, dəyərləndirmə əsasında da olsa, yanlışlar daima düzəldilməlidir. Əgər Həmzə danışa bilsəydi, dəyərləndirmə vərəqindəki tək fərq Həmzənin doğru sözü işarə etmək yerinə deməsi olacaqdı. Yanlış düzəltmə yenə eyni şəkildə edilmiş olacaqdı.
Dəyərləndirmə sırasında uşağın yanlış etdiyi hədəflər öyrətmə seansında öyrədilməlidir. Bu hal nümunədə Həmzənin yelləncək şəklini adlandırmasında daha çox təlimata ehtiyacı olduğu nəticəsinə gətirib çıxarır.

Həmzə danışmağa başlamış 6 yaşında bir uşaqdır. Hədəflənən mükafatlardan ikisi maşın və meyvə suyudur. Həmzə həm bu sözləri deyə bilir, həm də göz önündədirsə, istək bildirə bilir. İstək bildirməyi adlandırma bacarığına köçürərkən kömək edəcək şəkildə hər iki əşyanın da şəkilləri çəkilmişdir.

Ana: Önündə oyuncaq maşın və meyvə suyu ilə bu iki əşyanın şəkilləri mövcuddur.
Həmzə: “Meyvə suyu” deyərək istək bildirir və ona çatmağa çalışır.
Ana: Meyvə suyu şəklini yuxarı qaldırır və “bu nədir?... Meyvə suyu” deyir.
Həmzə: “Meyvə suyu” deyir.
Ana: “Doğrudur...Bu nədir?” Hələ də meyvə suyunun şəklini tutur.
Həmzə: “Meyvə suyu”.
Ana: Mükafatlandırmaq üçün Həmzəyə meyvə suyunu verir.

Bəzi mütəxəssislər uşağın ustalaşdığı istək bildirmələrini uğurla istifadə edib “bənzər əşyaları uyğunlaşdırma” bacarığından adlandırma bacarığına transfer edir. İşarət dilini erkən öyrənənlər bu sahədə xüsusilə daha uğurlu olurlar, çünki öyrədən şəxs bu halda sözü bir işarəylə uyğunlaşdıra bilir. Bu üsulda mütəxəssis bir uşağa bir şəkil verir və uşaq onu ən çox üstünlük verdiyi əşyayla şəkli şəklə uyğunlaşdırdıqdan sonra öyrədən şəxs şəkillərdən sadəcə birini qaldırıb “Bu nədir?” deyir. Bir neçə saniyə öncə uşaq işarəni görüb sözü eşitdiyi üçün doğru reaksiyanı sözlə söyləmə və ya işarət diliylə ifadə etmək ehtimalı artır. Bu cəhdin necə görünəcəyi aşağıdakı nümunədə verilib:

Ana: Masanın üzərində şokolad, yelləncək və çips şəkilləri var. Şokolad şəklinin bənzəri başqa bir şəkli Həmzəyə verib “Şokolad” deyir.
Həmzə: Şokolad şəklini digər şokolad şəklinin üzərinə qoyur.
Ana: Şokolad şəkillərindən üstdə olanı götürüb “Bu nədir?” deyir.
Həmzə: “Şokolad” deyir.

Alıcı dil bacarığından adlandırma bacarığına transfer edən başqa bir üsulu da ayrıca yoxlaya bilərsiniz. Bu üsulla başqa bir nümunəyə baxaq:
Ana: Masada alma, diş məcunu və maşın şəkli var və “Almanı göstər” deyir.
Həmzə: Alma şəklini göstərir.
Ana: Alma şəklini əlinə alır və “Bu nədir?” deyir.
Həmzə: “Alma” deyir.

Bu şəkildə övladınızın hal-hazırda istək bildirə bildiyi bütün əşyaları övladınız tək-tək adlandıra bilənə qədər öyrətməyə davam edə bilərsiniz. Daha sonra eyni transfer və ipucu üsullarını istifadə edərək mükafatlandırıcı olmayan əşyaları öyrətməyə başlaya bilərsiniz.